1. Hansı sözün yazılışı səhv verilmişdir?
A) Sehrli [sehirri]
B) Bulud [bulud]
C) Təbiət [təbiyət]
D) Neftçi [nefçi]

2. Mürəkkəb sözləri seçin.

Ucaboy, daim, gözəl, ağacdələn, kitabxana, tez-tez, çiçək, kəpənək, qızılgül, balıqçı, şahzadə, üçbucaq.

3. Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Cavan | a.hündür |
| 2. Gözəl | b.gənc |
| 3. Uca | c.qəşəng |

A) 1-b,2-a,3-c
B) 1-a,2-b,3-c
C) 1-b,2-c,3-a
D) 1-c,2-a,3-b

4. Verilmiş cümlədə neçə səhv yazılmış söz var?

Aysel şəmbə günü rəksə gedəcək.

A)3 B)2 C)1 D)4

5. Hansı sıradakı bütün sözlər doğru yazılmışdır?
A) Topbuz, mütəkgə, doqquz
B) Toqqa, bitki, isti
C) Haqqında, rəqqas, rəks
D) Şaftalı, həfdə, itki

LIVEWORKSHEETS

6. Verilmiş cümlələrdən hansında söz birləşməsi var?
A) Nərmin bayram xonçasını hazırladı.
B) Bağban ağacları suladı.
C) Nənəm səmənini suladı və qulluq etdi.
D) Hər kəs maraqla tonqala baxırdı.

7. “Novruz bayramınız mübarək!” cümləsi hansı növə aid cümlədir?
A) əmr B) sual C) nəqli D) nida

8. İSİM+İSİM sxeminə uyğun mürəkkəb söz hansı bənddə göstərilmişdir?
A) isti-soyuq B) dikbaş
C) əmioğlu D) soyuqqanlı

9. “Pambıqçı” sözü haqqında doğru fikri seçin.
A) “Kim” sualına cavab verir.
B) Kökü əlamət bildirir
C) İki cür yazılan şəkilçi var
D) Mücərrəd isimdir.

10. Hansı sözlərə -çı,-çi,-çu,-çü hissəciklərini artırıb yeni söz yaratmaq olar?
A) Vurmaq, qaçmaq
B) Yazı,kitab
C) Yaşıl, şirin

LIVEWORKSHEETS

11. Hansı sözdə 2 şəkilçi var?

A) Gülçü B) ətirli C) yaylıq D) otlaqdan

12. Aşağıdakı cümlədə söz birləşməsi hansıdır?

Bulaq suyu çox təmiz və buz kimi soyuq idi.

A) təmiz B) buz kimi C) bulaq suyu D) soyuq

13. Hansı cümlədə səhv yazılmış söz var?

A) Göy üzünü qara buludlar aldı.

B) Çəmənlikdə kəpənəklər uçuşurdu

C) Aysunun kədərri halı məni sarsıtdı

D) Bu yerlərdə çox olmuşuq

14. Hansı sözə saitlə başlayan şəkilçi artırdıqda q-ğ əvəzlənməsi baş verməz?

A) yarpaq B) qayıq C) vərəq

15. Hansı variantdakı sözlər birləşsə, söz birləşməsi yaranmaz?

A) gül,qoxu C) dəniz,su

B) uşaq, səs D) yol,vərəq

LIVEWORKSHEETS